

***CAVİD QASIMOV***

# *QƏZƏLLƏR*

**Ağrılarnan məni dünya götürüb həm bələdi,
Həm də söz-söz varağa zövqünə uyğun ələdi.**

**Ana bətnində mən öz bəxtimi qoydum, gəldim,
Nə biləydim naxışın yoxluğu ağır şələdi.**

**Saat əqrəbləri çəkdi ömürü sap(ı) kimi,
Keçmişin xatirələr xalçasını ilmələdi.**

**Sən gedəndən bəri bu dilsiz-ağızsız evdə
Bir qarışqa yeriyəndə, sanıram zəlzələdi.**

**Sənə məktub gətirərkən kəpənəklər, məni də
Çırpılan hər qanadıyla sənəcən silkələdi.**

**Arzularnan neçə il yemlədim ac dünyanı,
Qarnı toxdur, daha fırlanmayacaq, mürgülədi.**

**Taleyin öz qələminlə yazılıbdır, Cavid,
Dedi Allah(ı), demə bağ belə, bostan belədi.**

*******

**Qələm ayaqlar altına sərəndə ağ varaqların,
De ki, tükənməsin gücün, yorulmasın ayağların.**

**Öpülməyən şəkillərim evin tozuyla dost olub,
Yavaş-yavaş rəsmlərə ögeyləşir dodağların.**

**Bu göz yaşımda ölməyim deyildi qismətim mənim,
Fəqət, dodaqlarım bilir dadın axan bulaqların.**

**Eşitməsən də, sevgilim, dalınca nalə səslərin,
Kar eylədim məzarım üstəki balıqqulaqların.**

**Ömür ağacı Cavidin nə bəhrə verdi, bilmirəm,
Əcəl əyir ömür boyu aşağı qol-budaqların.**

*******

**Hər qəbir bir günəşin batdığı yerdir, Vallah.
Günəşin mənzilinə çatdığı yerdir, Vallah.**

**Gəl gedək mənlə bu dünyadən, əzizim, buralar
Şeytanın adəmi oynatdığı yerdir, Vallah.**

**Ağ varaqlarda doğulmaqla ölür misralar,
Bu varaqlar əcəlin yatdığı yerdir, Vallah.**

**Gəzib axtarma görüşçün təzə yer, ən gözəli**
**Məni öz bəxtimin aldatdığı yerdir, Vallah.**

**Bu ömür ki dolaşıq düşdü, mən ondan bilirəm**
**Fələyin çarxını fırlatdığı yerdir, Vallah.**

**Süpürür yaşlı qadın bir küçədən keçmişini,**
**Elə bil ki, onun öz atdığı yerdir, Vallah.**

**Parçalanmış ürəyim sevgimizin səngəridir,**
**Həm də gizlin məni ağlatdığı yerdir, Vallah.**

**Torpaq ömrün qoca piştaxtasıdır, bir əcəlin**
**Can alıb burda sümük satdığı yerdir, Vallah.**

**Gözlərim hər gecə göydə yanan ulduzlar üçün**
**Su içib, özlərin islatdığı yerdir, Vallah.**

**Gözlənilməz qonağın ev qapısın döyməsi də**
**Ölümü san ki xatırlatdığı yerdir, Vallah.**

**Uyma, Cavid bu qəzəldə nə qədər and içsə,**
**Aləmi bir-birinə qatdığı yerdir, Vallah.**

*******

**Dəryanı qəmlə sahilə doğru varaqladım,**
**Əksim düşən səhifələri qəmlə bağladım.**

**Səndən qalan şəkilləri kirpiklərimlə mən,**
**Əvvəlcə doğradım, sora bir-bir qucaqladım.**

**Gördüm xəyalın evdə gəzir oğrular kimi,**
**Yox məndən özgə heç nə, sevincimdən ağladım.**

**Mən qəlbimin qırıntıların yığmışam daha,**
**Eşqin çörək qırıntıların az ayaqladım.**

**Neynim ki saçlarım üzümə səntək ağ olub,**
**Səndən nəvazişi deyil əskik, darağladım.**

**Cavid, görəndə yarın ayağında kölgəmi,**
**Mən gah(i) qovdum ahım ilə, gah(i) dağladım.**

ədalət.- 2021.- 18 mart.- s.7.